Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Allah Hər Şeyi Yaradanda





Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus;
Alastair Paterson

Uyğunlaşdıran: Bob Davies; Tammy S.

Tərcümə edən: Günay  Karaağac

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Bizi Kim yaradıb? Müqəddəs Kitab, Allahın Sözü bizə bəşəriyyətin necə yarandığını danışır. Uzun illər əvvəl Allah ilk insanı yaratdı və onun adını Adəm qoydu.



Allah Adəmi yerin torpağından yaratdı. Allah Adəmə həyat nəfəsi üfürəndə o, canlı varlıq oldu.  O, Eden adlanan gözəl bir bağda idi.



Allah Adəmi yaratmazdan əvvəl O, gözəl şeylərlə dolu gözəl bir dünya yaratdı.



Addımbaaddım Allah təpəli yerlər və çöllüklər, ətirli çiçəklər və uca ağaclar, parlaq tüklü quşlar və vızıldayan arılar, üzən balinaları və sürüşkən



ilbizləri yaratdı.

Sözün düzü, Allah hər şeyi – hər şeyi yaratdı.



Başlanğıcda,
Allah hər şeyi
yaratmazdan əvvəl,
Allahdan başqa
heç bir şey yox
idi.  Nə insan,
nə yerlər, nə də
ki, digər şeylər.
Heç bir şey.



Nə işıq və nə də ki, qaranlıq. Nə yüksəklik və nə də alçaqlıq. Nə dünən və nə də sabah. Yalnız başlanğıcı olmayan Allah var idi. Sonra Allah fəaliyyətə başladı!



Başlanğıcda Allah göyləri və yeri yaratdı.

Yer quruluşsuz və
boş idi.  Dərin
sular üzərində
qaranlıq
var idi.



Allah dedi:
“Qoy işıq
olsun”.



İşıq oldu.  Allah işığı “gündüz”, qaranlığı isə “gecə” adlandırdı.  Axşam oldu, səhər açıldı; bu, birinci gün idi.



İkinci gündə Allah okeanların, dənizlərin və göllərin sularını göyün altına topladı. Üçüncü gündə Allah dedi: “Qoy quru torpaq olsun”.  Belə də oldu.



Allah həmçinin otların, güllərin, kolların
və ağacların da olmasını
əmr etdi.



Belə də oldu.  Axşam oldu, səhər açıldı; bu, üçüncü gün idi.



Sonra Allah günəşi və ayı və heç kimin saya bilməyəcəyi qədər çoxlu sayda ulduzları yaratdı.



Axşam oldu, səhər açıldı;
bu, dördüncü gün idi.



Allahın siyahısında
növbəti şeylər
dəniz məxluqları,
balıqlar və quşlar
idi.  Beşinci gündə
O, böyük qılıncbalığını
və bapbalaca sardinanı,
uzunayaqlı dəvəquşunu
və balaca şən quşları
yaratdı.



Suların canlı məxluqlarla qaynaşması üçün Allah hər növ balıq və yerdən, dənizdən və səmadan zövq almaq üçün hər növ quşlar yaratdı.



Bundan sonra Allah yenidən danışdı. O dedi: “Qoy yer üzü hər növ canlı məxluqlar – hər növ ev heyvanları, sürünən canlılar və çöl heyvanları əmələ gətirsin”.  Belə də oldu.  Orada yeri titrədən fillər və məşğul arılar var idi.



Dəcəl meymunlar və kobud timsahlar. Burulmuş soxulcanlar və sırtıq burunduklar.  Uzundraz zürafə və mırıldayan pişiklər.  O gün Allah hər növ heyvanları yaratdı.

Axşam oldu, səhər açıldı; bu, altıncı gün idi.



Allah altıncı gündə başqa bir şey etdi- çox xüsusi bir şey.  İndi İnsan üçün hər şey hazır idi.  Çöldə yemək və ona qulluq etmək üçün heyvanlar var idi.



Allah dedi: “Öz surətimizə və bənzərimizə görə insanı yaradaq.  Qoy o, bütün yer üzünə hökmranlıq etsin”.



BELƏLİKLƏ, ALLAH İNSANI ÖZ SURƏTİNDƏ YARATDI; ALLAHIN SURƏTİNDƏ YARATDI…

Allah Adəmə dedi: “Bağdakı bütün ağacların bəhrəsindən istəyəndə yeyə bilərsən.



Ancaq xeyirlə
şəri bilmə
ağacının
meyvəsindən
yemə, çünki
ondan yeyən gün
hökmən öləcəksən”.



Rəbb Allah yenə dedi: “İnsanın tək olması yaxşı deyil, Mən ona münasib olan bir köməkçi yaradacağam”. Allah bütün çöl heyvanlarını və göydəki bütün quşları Adəmin yanına gətirdi.



Adəm onların hamısına ad qoydu. Yəqin ki, o, belə bir şeyi etmək üçün çox ağıllı idi. Lakin bütün quşlar və çöl heyvanları arasında Adəmə münasib köməkçi tapılmadı.



Allah Adəmə dərin yuxu göndərdi və o yuxuya getdi. Yuxuya getmiş adamın qabırğasının birini götürərək, Allah Adəmin qabırğasından qadın düzəltdi. Allahın yaratdığı qadın Adəm üçün tam münasib bir köməkçi idi.



Allah hər şeyi altı gündə yaratdı. Allah yeddinci günə bərəkət verdi və həmin günü istirahət günü etdi.




Eden bağında Adəm və Həvvanın Allaha itaət edərək kamil xoşbəxtlikləri var idi. Allah onların Rəbbi, onların Təmin edəni və Dostu idi.

# Allah Hər Şeyi Yaradanda

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yaradılış 1-2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir.  Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi!  Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**